# “Bizim sözümüz imzamız qədər qiymətlidir...”

## *Azərbaycan–Serbiya münasibətləri, möhkəm təməl, nikbinlik vədi və qırıcı təyyarə jesti*



**Azərbaycan Prezidenti İlham Əliyevin bu il yanvarın 13-də Gülüstan Sarayında keçirilən tədbirdə dediyi bu fikri Serbiya Prezidenti Aleksandar Vuçiç də noyabrın 23-də mətbuata bəyanatında bir daha təsdiqlədi: “Mən Prezident Əliyevə dedim ki, bütün şəffaf protokol məsələlərinə görə bəzi sənədlər imzalanmalı olsa da, onun sözü bizim üçün yetərlidir. Çünki biz onun sözünə hər hansı imzadan daha çox inanırıq. O, nəyi deyirsə, mənim üçün kifayətdir, bilirəm ki, bu, belə də olacaq. Bu, bizim üçün, həqiqətən də, vacibdir”.**

Azərbaycan Prezidentinin Serbiyaya gerçəkləşmiş səfəri zamanı iki ölkə arasında müxtəlif sahələrdəki əməkdaşlıq məsələləri ətraflı müzakirə olunub. Mühüm məqam Srtateji Tərəfdaşlıq və Müttəfiqlik haqqında Memorandumun imzalanmasıdır. Əlbəttə, ondan da önəmlisi Serbiya Prezidentinin yuxarıda qeyd etdiyimiz fikridir. Bəli, cənab İlham Əliyevin sözü sözdür, dostluğu dostluqdur. Qloballaşan və əlahiddə maraqlar üzərində qurulmuş dünyanın siyasət meydanında sözünün ali təminat olduğu dövlət başçıları çox azdır. Azərbaycan Prezidenti məhz bu xarakterə malik liderdir və Serbiya Prezidenti A.Vuçiçin timsalında kişi sözünə dəyər verən Avropa liderinin mövcudluğu da sevindiricidir.

Bəli, Azərbaycanla Serbiya arasında münasibətlər yüksək səviyyədədir. Hər iki ölkə liderinin mətbuata birgə bəyanatı zamanı səsləndirdikləri fikirlər, eləcə də səfər gedişindəki digər toplantılar, ayrı-ayrı fraqmentlər həm bunu deməyə əsas verir, həm də əlaqələrin pesrpektivi ilə bağlı dərin nikbinlik doğurur. Balkan yarımadasının mühüm strateji nöqtəsi sayılan ölkə ilə müstəsna tərəfdaşlıq məmnunluq yaradır. Azərbaycan və Serbiya arasında diplomatik münasibətlərin 25 illiyi müstəvisində bu cür möhkəm təmasların mövcudluğu adi məsələ sayılmamalıdır.

**(ardı 4-cü səhifədə)**

# “Bizim sözümüz imzamız qədər qiymətlidir...”



(əvvəli 1-ci səhifədə)

Eyni zamanda, onu da bildirməliyik ki, Bakının rəsmi Belqradla tarixi ziddiyyətlərdə olan Albaniya ilə də münasibətlərinin yüksək səviyyəsi maraq doğurmaqdadır. Bu, onu göstərir ki, Azərbaycan özünün balanslı xarici siyasətinə sadiqdir, ən əsası isə ölkəmiz bu siyasəti tərəfdaşlarına qəbul etdirməyi bacarır. Çünki ortada son dərəcə böyük və çox az rast gəlinən səmimiyyət faktoru var.

Cənab İlham Əliyev, sözün əsl mənasında, səmimi liderdir. Dövlətimizin başçısı malik olduğu bu xarakteri siyasətə, real iş müstəvisinə daşımağın təkrarsız və bənzərsiz örnəyidir. Əminik ki, Azərbaycanın normal münasibətlərdə olduğu hər bir ölkənin başçısı cənab İlham Əliyev haqqında Serbiya Prezidenti kimi düşünür və bu düşüncə beynəlxalq arenada ölkəmizə bəslənilən inam və etimadın müstəsna indikatoru rolunda çıxış edir.

Diqqətə çatdırdığımız kimi, Azərbaycanla Serbiya arasındakı diplomatik münasibətlərin 25 ili tamam oldu. Qeyd edək ki, Serbiyanın bir vaxtlar tərkibində təmsil olunduğu keçmiş Yuqoslaviya ölkəmizin müstəqilliyini 31 dekabr 1991-ci ildə tanıyıb. Serbiya və Monteneqro İttifaqı ilə Azərbaycan Respublikası arasında ikitərəfli diplomatik münasibətlər isə 21 avqust 1997-ci ildə qurulub. 8 iyun 2011-ci ildə Azərbaycanın Serbiya Respublikasında səfirliyi açılıb. Serbiyanın da Azərbaycanda səfirliyi fəaliyyət göstərməkdədir. Hər iki ölkə siyasi, iqtisadi, humanitar və mədəniyyət sahəsində ciddi əməkdaşlığa malikdir. Rəsmi Bakının bu Balkan ölkəsi ilə müxtəlif sahələrdə imzaladığı sənədlərin sayı 44-dür.

İki ölkə arasındakı bütün sahələri əhatə edən münasibətlərdən söz açarkən, Serbiyada iki məşhur azərbaycanlının – ümummilli lider Heydər Əliyevin və dahi bəstəkarımız Üzeyir bəy Hacıbəylinin abidələrinin ucaldıldığını da vurğulamaq lazımdır. Prezident İlham Əliyev 9 iyun 2011-ci ildə ölkəyə rəsmi səfəri zamanı etdiyi çıxışda bildirib: "Bu gün Serbiya-Azərbaycan əlaqələrinin inkişafında çox gözəl və əlamətdar bir gündür. Bu gün bizim tariximizdə dostluq günü kimi qalacaq. Bu gün Belqradın gözəl guşələrindən birində iki xalqın görkəmli şəxsiyyətlərinin şərəfinə abidələr ucaldılıb. Bu dostluq rəmzi, əminəm ki, hər iki xalqın qəlbində gözəl əks-səda verəcəkdir. Serb xalqının böyük oğlu, filosof və yazıçı Milorad Paviçin abidəsi, Azərbaycan xalqının böyük oğlu, dövlət xadimi, müstəqil Azərbaycanın banisi Heydər Əliyevin abidəsi bir-birinin yanında iki qədim xalqın dostluq rəmzinə çevrilibdir".

“Zənnimcə, gözəl bir yerdir. Musiqiçilər gəlib burada əsərlərini ifa edə bilərlər. Təbii ki, burada yaşayan sakinlər, vətəndaşlarımız parka gəlib asudə vaxtlarını keçirə, istirahət edə bilərlər. Hesab edirəm ki, bu gün bu hadisənin baş tutması mədəni sahədəki əlaqələrimizə böyük bir töhfədir”, – deyə Serbiyanın o vaxtkı Prezidenti Boris Tadiç vurğulamışdır.

Elə həmin günlərdə Serbiyada Azərbaycan səfirliyinin iqamətgahının açılış mərasimində də iştirak etmiş Prezident İlham Əliyev demişdir: "Bu gün yaddaşımızda gözəl gün kimi qalacaq, xüsusilə nəzərə alsaq ki, artıq Serbiyada Azərbaycan dövlətinin bir parçası da mövcuddur. Bizim səfirliyimiz, əminəm ki, fəal işləyəcək və iki ölkə arasındakı münasibətlərin inkişafı üçün dəyərli töhfəsini verəcəkdir. Deyə bilərəm, mən və əminəm ki, mənimlə bərabər buraya gəlmiş nümayəndə heyətinin üzvləri özümüzü Bakıdakı kimi hiss edirik".

Cənab İlham Əliyev Serbiyaya 2011-ci ildəki səfəri zamanı, həmçinin, Bakıda serb xalqının dünya şöhrətli nümayəndəsi Nikola Teslanın abidəsinin ucaldılacağını da diqqətə çatdırmışdı. Hazırda paytaxtımızın Azadlıq prospekti ilə Süleyman Rəhimov küçəsinin kəsişməsində yerləşən xiyabandakı bu abidənin 2013-cü ildə keçirilmiş açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva və Serbiyanın o zamankı Prezidenti Tomislav Nikoliç, xanımı Dragitsa Nikoliç iştirak etmişlər. Yeri gəlmişkən, T.Nikoliçin həmin il 7-9 fevral tarixlərində ölkəmizə gerçəkləşdirilmiş rəsmi səfəri zamanı “Azərbaycan Respublikası və Serbiya Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə” də imzalanmışdır. Ölkənin hazırkı dövlət başçısı A.Vuçiçin 2018-ci ilin 21-22 may tarixlərində Azərbaycana rəsmi səfəri zamanı isə dövlət başçıları “Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı”nı təsdiqləmişlər. Haşiyə çıxaq ki, A.Vuçiçin sələfi T.Nikoliçin də Azərbaycan və Serbiya əməkdaşlığına mühüm töhfələr verdiyini söyləmək üçün kifayət qədər ciddi əsaslar var.

2013-cü ilin fevralında “Beynəlxalq hüquqa riayət olunması və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair qətnamə” layihəsi Serbiya Parlamentinin gündəliyinə salınmışdır. O da vurğulanmalıdır ki, Azərbaycanla Serbiyanın dostluq və əməkdaşlıq münasibətləri beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli platformalarda öz əksini tapır. Ölkələrin beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan mövqelərinə göstərilən qarşılıqlı dəstək nümunələri var.

Bundan başqa, Azərbaycan və Serbiyanın birgə təşkilatçılığı ilə 2021-ci ilin 10-11 oktyabr tarixlərində Belqradda Qoşulmama Hərəkatı Təşkilatının 60 illik yubileyinə həsr olunmuş yüksək səviyyəli tədbiri təşkil olunub. Ümumilikdə, 120-yə yaxın ölkə və beynəlxalq təşkilatın yüksək rütbəli nümayəndəsinin qatıldığı bu genişmiqyaslı toplantının uğuru Azərbaycan və Serbiyanın birgə əməkdaşlığının növbəti bariz nümunəsidir.

Onu da diqqətə çatdıraq ki, 2010-cu ildə Serbiya–Azərbaycan Ticarət Palatası yaradılıb. 7 iyun 2011-ci ildən etibarən isə Azərbaycan-Serbiya Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyası fəaliyyət göstərir. 2021-ci ildə ölkələrimiz arasında ikitərəfli qaydada viza rejimi ləğv olunub ki, bu addım əlaqələrin inkişaf tempinə müstəsna təkan verəcək.

Humanitar və mədəniyyət sahələri üzrə də qarşılıqlı əməkdaşlığa gəlincə, bildirək ki, 2010-cu ilin iyununda Belqradda Azərbaycan Mədəniyyət Mərkəzi yaradılıb. 2011-ci ildə Azərbaycan hökumətinin dəstəyi ilə paytaxtdakı “Taşmaydan parkı” yenidən qurulub və abadlaşdırılıb.

Prezident İlham Əliyevin göstərişi ilə 2011-2012-ci illərdə Azərbaycan tərəfindən Belqraddakı “Bayraklı Cami” məscidinin təmiri və bərpası, Novi Sad şəhərində “Müqəddəs Petka” kilsəsinin tikintisi və təmiri, həmçinin Novi Pazar şəhərində Mədəniyyət Mərkəzinin təmiri həyata keçirilib. Dövlətimizin başçısına Azərbaycan və Serbiya, həmçinin Balkan ölkələri arasında çoxşaxəli əlaqələrin inkişafına verdiyi töhfələrə, həmçinin Azərbaycan və Balkan xalqlarının yaxınlaşmasında xüsusi xidmətlərinə görə “Ana və Vlade Divats Fondu”nun “Balkanların ləyaqətli dostu” beynəlxalq mükafatı təqdim edilib.

2014-cü ildə Serbiyada baş vermiş sel və daşqınların törətdiyi təbii fəlakətin nəticələrinin aradan qaldırılması məqsədi ilə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən xüsusi təyyarə reysi ilə aparılmış 400 min avro dəyərində humanitar yardım Belqrad Hava Limanında Serbiyanın aidiyyəti qurumlarına təhvil verilib ki, bu da Azərbaycan Prezidentinin göstərişi ilə həyata keçirilmiş aksiyadır.

Serbiya Prezidentinin 26 mart 2015-ci il tarixli fərmanı ilə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Serbiya Respublikası qarşısında ictimai, mədəniyyət və humanitar fəaliyyət sahəsində xüsusi xidmətlərinə görə Serbiya Respublikasının yüksək dövlət mükafatı – “Sreten Ordeni” ilə təltif edilib.

Belqrad şəhərinin meriyası və parlamenti 2015-ci ildə paytaxtın küçələrindən birinə dahi Azərbaycan şairi Bəxtiyar Vahabzadənin adının verilməsi haqqında qərar qəbul edib.

2020-ci il mayın 19-da Prezident İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan hökuməti adından COVID-19 pandemiyası ilə mübarizəyə dəstək məqsədilə Serbiya Respublikasına bir təyyarə humanitar yardım göndərilib.

17 noyabr 2021-ci ildə Belqrad şəhərində Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş ədəbi-bədii gecə keçirilib. Bu il yanvarın 14-də isə Azərbaycanın Serbiyadakı səfirliyi, Belqradda fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzi və Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) təşkilatçılığı ilə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə həsr edilmiş “Nizami Gəncəvini oxuyaraq” adlı kitab-albomunun təqdimatı olub.

Göründüyü kimi, ötən illərin, demək olar, hər biri Azərbaycan-Serbiya əməkdaşlığı baxımından hansısa mühüm hadisənin baş verməsi ilə yaddaqalan olub. Əminik ki, Azərbaycan Prezidentinin Serbiyaya 2022-ci il noyabrın 23-də gerçəkləşmiş səfəri bu baxımdan daha parlaq səhifələrin açılmasına şərait yaradacaqdır. Həm də ona görə ki, Prezident A.Vuçiçin də bildirdiyi kimi, əməkdaşlıq əzmi yalnız sənədlərdə deyil, dostluqda, əsl kişi sözündə əksini tapmış reallıqdır, möhkəm təməldir.

**P.S.** Serbiya hakimiyyəti Prezident İlham Əliyevi xüsusi hörmətlə qarşılayıb. Belə ki, Azərbaycanın dövlət başçısının təyyarəsini müşayiət etmək üçün ölkənin qırıcılarını səmaya qaldırıb. Bununla bağlı görüntüləri Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “Twitter” hesabında paylaşıb. Eyni zamanda, onu da vurğulayaq ki, cənab İlham Əliyevi hava limanında serbiyalı həmkarı A. Vuçiç şəxsən qarşılayıb. Serbiya Prezidenti eyni jesti dövlətimizin başçısını Vətənə yola salanda da edib.

**Ə.CAHANGİROĞLU,**
**“Xalq qəzeti”**

## Ekspert rəyi



**Fikrət SADIQOV,**
**siyasi təhlilçi, professor**

Prezident İlham Əliyevin Serbiyaya rəsmi səfəri bir çox mühüm və maraqlı məqamlar ilə yadda qaldı. Əlamətdar haldır ki, Azərbaycan dövlətinin başçısına dərin hörmət əlaməti olaraq, Serbiyanın qırıcı təyyarələri ali qonağın təyyarəsini səmada müşayiət etdilər. Serbiya Prezidenti Aleksandr Vuçiç həmkarı cənab İlham Əliyevi aeroportda şəxsən qarşıladı və şəxsən yola saldı. Bəlkə də bu, rəsmi qarşılanma protokoluna daxil edilməmişdi. Fikrimcə, bununla cənab Vuçiç Azərbaycan liderinin şəxsiyyətinə dərin hörmət və ehtiram bəslədiyini göstərdi.

Son illər Azərbaycan–Serbiya münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Səfər zamanı bir sıra mühüm sənədlərin imzalanması bunu bir daha sübut etdi. Şübhə yoxdur ki, Azərbaycan təbii qazının Serbiyaya nəqli, iki ölkə arasında hərbi-texniki, eləcə də rabitə, yüksək texnologiyalar sahələrində sıx əməkdaşlığın gücləndirilməsi dövlətlərimiz və xalqlarımızın mənafelərinə tamamilə uyğundur.

Məlumdur ki, Azərbaycan və Serbiya dövlətləri uzun illər separatçılıqdan əziyyət çəkiblər və bu gün də çəkirlər. Hər iki lider rəhbərlik etdikləri ölkələrin ərazi bütövlüyünün toxunulmazlığı prinsipini qətiyyətlə dəstəkləyirlər və bu barədə rəsmi bəyanatlar səsləndirdilər.

Qeyd edək ki, biz 30 ilə yaxın BMT Təhlükəsizlik Şurasının, digər nüfuzlu beynəlxalq təşkilatların işğalçı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın beynəlxalq birlik tərəfindən rəsmən tanınan ərazilərini təcili surətdə tərk etməsi ilə bağlı qərarlarının icrasını gözlədik. Təəssüf ki, bu sənədlər icra olunmadı, o zaman biz beynəlxalq hüquqa əsaslanaraq 44 günlük şanlı savaşda öz torpaqlarımızı öz gücümüzlə azad etdik.

Bir daha vurğulamaq istəyirəm ki, beynəlxalq hüquq bizə buna tam əsas verirdi. Unutmayaq ki, Təhlükəsizlik Şurasının qətnamələri mötəbər sənədlərdir.

Əminəm ki, Azərbaycan Prezidentinin Serbiyaya rəsmi səfərindən sonra dövlətlərimiz arasında münasibətlər daha da inkişaf edərək ən yüksək səviyyəyə qalxacaq. Dövlət başçılarımız ikitərəfli münasibətlərin bütün sonrakı mərhələlərdə möhkəmlənməsinə şəxsən nəzarət edəcəklər. Möhtərəm Prezidentlərin şəxsi dostluq münasibətlərinin, əlaqələrimizin yüksəlməsinə təkan verəcək.